# YAŞAR QARAYEV HAQQINDA GÖRKƏMLİ ŞƏXSLƏRİN FİKİRLƏRİ

Yaşar Qarayev filoloji təhkiyəmizi və üslubumuzu "bənzərsiz bədii ədası" ilə zənginləşdirmişdi. Mənə hərdən elə gəlir ki, Bəxtiyar Vahabzadənin poetik priyomları hardasa Yaşar Qarayevin filoloji düşüncə məntiqi və yazı üslubu üçün də işləkdir. Fəlsəfi antinomiyalar, ritorik suallar, fəlsəfi ümumiləşdirmələr Yaşar Qarayevin də yazıları üçün səciyyəvidir. Yaşar müəllim inanırdı ki, yazıda fikir, deyim "nə qədər poetikdirsə, bir o qədər də inandırıcıdır.

***Rüstəm Kamal,***
***professor***

Yaşar müəllim mənim tanıdığım nadir şəxsiyyətlərdən idi ki, elmi və həyati vərdişləri eyni üslubda, eyni biçimdə idi. O necə düşünürdüsə elə də yazırdı, elə də danışırdı. Həyatın, məişətin adiliklərində də gözəllik, zəriflik görürdü. Hamımızın müşahidə etdiyimiz görüntülərdə heç kimin gözləmədiyi bir məna, əxlaqi-ictimai tutum tapırdı. Onun şifahi və yazılı nitqi fərqlənmədiyi kimi yerişi, duruşu da heç kimə bənzəmirdi.

***Şirindil Alışanlı,***
***professor.***

Yaşar Qarayev Azərbaycan ədəbiyyatşünaslığında özünəqədərki bütün mövcud təhlil, bədii mətnə enmək və onu estetik hadisə kimi dəyərləndirməklə bağlı ənənəni ümumiləşdirərək ona yüksək nəzəri səciyyə aşılamışdır.

***Cavanşir Yusifli,***
***ədəbiyyatşünas***

Yaşar Qarayev – müasir ədəbi hadisələri proses halında alan, ədəbi inkişafın qanunauyğunluqlarını, perspektivlərini, problem qaynaqlarını müəyyənləşdirməyi bacaran, oxucuya əsərin mahiyyətinin dərki üçün açar verən, qərəzkar subyektivlikdən və səthi-liberal obyektivlikdən tamamilə uzaq olan, tənqid sənətinə oxucuda sevgi, məftunluq yaradan analitikdir.

***Rahid Ulusel,***
***ədəbiyyatşünas***

Yaşar Qarayev Azərbaycan realizminin təşəkkül və inkişaf mərhələlərini, bu ədəbi cərəyanın dünya ədəbiyyatı ilə qarşılıqlı əlaqələrini, eləcə də XIX–XX əsrlər realist bədii nəsrinin tipoloji xüsusiyyətlərini sistemli və dərin elmi təhlil predmetinə çevirib.

***İsa Həbibbəyli,***
***akademik***

Yaşar Qarayev şəxsiyyətinin böyüklüyünü göstərən cəhətlərdən biri bundan ibarətdir ki, o, nə qədər yüksək vəzifələr tutsa da, onların heç biri daha əzəmətli səslənən, daha geniş semantikaya malik “Yaşar Qarayev” adının səviyyəsinə qalxmamışdır – hələ 10-15 il bundan əvvəldən həmin “Yaşar Qarayev” adı eyni zamanda təyin kimi işlənir: Yaşar Qarayev təhlili, Yaşar Qarayev tənqidi, Yaşar Qarayev məktəbi... Və bunların məcmusu kimi Yaşar Qarayev fəlsəfəsi!

***Nizami Cəfərov,***
***akademik***

Yaşar Qarayev yalnız ədəbiyyatın inkişaf yolları, problemləri, tarixi, bu günü və perspektivləriilə bağlı nəzəri məqalələr, fundamental əsərlər yazmamış, eyni zamanda uzun müddət həm də ədəbi siyasəti birbaşa həyata keçirən bir ədəbiyyat rəhbəri və başçısı olmuşdur.

***Bədirxan Əhmədov,***
***professor***

Böyük yaradan Yaşar Qarayevə titanik zəka və onu tükənməyə qoymayan heyrətamiz enerji bəxş etmişdi. Novator tədqiqatçı və novator tənqidçi olan Yaşar Qarayev XX əsr Azərbaycan ədəbiyyatşünaslığının və tənqidinin memarlarından biridir.

***Qəzənfər Paşayev,***
***professor***

Sadə, səmimi, təvazökar yüksək mənəviyyat sahibi Yaşar Qarayevin bədii-fəlsəfi fikrimizdə ən bğyük xidməti bu idi ki, o öz elmi ilə milli idrakımızın üfüqlərini genişləndirdi.

***Nizaməddin Şəmsizadə,***
***filologiya elmləri doktoru, professor***

Yaşar Qarayev müasir ədəbi prosesi diqqətlə izləyən, bədii düşüncənin nəzəri problemləri ilə müntəzəm məşğul olan, çoxəsrli bədii sərvətimizin  də ən yaxşı ənənələrini tədqiq və təbliğ edən istedadlı tənqidçi və ədəbiyyatşünas kimi tanınmışdır.

***Məmməd Cəfər,***
***Əməkdarelm xadimi, ədəbiyyatşünas***

Yaşar Qarayev əsərdən əsərə inkişaf edən istedadlı alimdir. Onun keçən ilin sonunda nəşr edilən “Realizm: Sənət və həqiqət” monoqrafiyası buna ən yaxşı sübutdur...

Monoqrafiyanı oxuyarkən müasir nəzəri-estetik və elmi-metodoloji nailiyyətləri dərindən vaqif bir tədqiqatçı ilə üz-üzə gəlir, onun güclü məntiqinə, tənqidçi-alim düşüncəsinə inanırıq.

***Abbas Zamanov,***
***professor***